# AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

**№ 466** **Bakı şəhəri, 30 noyabr 2020-ci il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikasında rezidenturaya qəbul Qaydaları"nın təsdiq edilməsi haqqında" 2017-ci il 8 fevral tarixli 41 nömrəli, "Baza maliyyələşdirilməsinin subyektləri olan elmi müəssisə və təşkilatların Siyahısı"nın təsdiq edilməsi haqqında" 2017-ci il 21 dekabr tarixli 584 nömrəli, "Yaşayış məntəqələrinin yaşıllıqla təmin edilməsi Normaları"nın təsdiq edilməsi haqqında" 2018-ci il 5 yanvar tarixli 1 nömrəli, "Yaşıllıqların müfəssəl siyahısının tərtib edilməsi qaydası, təyinatı və onlardan istifadə Qaydası (rejimi)"nın təsdiq edilməsi haqqında" 2018-ci il 23 yanvar tarixli 21 nömrəli və "Ailə tipli, icma əsaslı, qısamüddətli təlim qruplarında məktəbəqədər təhsilin təşkili Qaydası"nın təsdiq edilməsi haqqında" 2018-ci il 28 fevral tarixli 64 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 8 fevral tarixli 41 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 294; 2018, № 4, maddə 819, № 11, maddə 2432; 2019, № 3, maddə 517, № 12, maddə 2071) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında rezidenturaya qəbul Qaydaları"nın 2.3-cü bəndinin birinci cümləsinə "Səhiyyə Nazirliyi tərəfindən" sözlərindən sonra "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi ilə razılaşdırmaqla" sözləri əlavə edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 21 dekabr tarixli 584 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (II kitab), maddə 2531; 2018, № 8, maddə 1798; 2019, № 5, maddə 944; 2020, № 4, maddə 481) ilə təsdiq edilmiş "Baza maliyyələşdirilməsinin subyektləri olan elmi müəssisə və təşkilatların Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 3.3-3.9-cu və 3.11-ci bəndlər ləğv edilsin;

2.2. 14.1-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 14.2-14.9-cu bəndlər əlavə edilsin:

"14.2. Akademik C.M.Abdullayev adına Elmi-Tədqiqat Kardiologiya İnstitutu;

14.3. M.A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzi;

14.4. K.Y.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutu;

14.5. Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutu;

14.6. Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutu;

14.7. Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutu;

14.8. V.Y.Axundov adına Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutu;

14.9. Elmi-Tədqiqat Ağ Ciyər Xəstəlikləri İnstitutu.".

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 5 yanvar tarixli 1 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 1, maddə 118, № 12 (II kitab), maddə 2741) ilə təsdiq edilmiş "Yaşayış məntəqələrinin yaşıllıqla təmin edilməsi Normaları"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.3.4-cü yarımbənddə və 2.5-ci bənddə "səhiyyə" sözü "tibb" sözü ilə əvəz edilsin;

3.2. həmin Normalara 3 nömrəli əlavə - "Məhəllədaxili, təhsil, səhiyyə, mədəni-məişət, sənaye müəssisələrinin və digər obyektlərin tikintilərinin layihələndirilməsi zamanı məhdud istifadəli yaşıllıqların ərazi balansı" üzrə:

3.2.1. adında "səhiyyə" sözü "tibb" sözü ilə əvəz edilsin;

3.2.2. "Məhdud istifadəli yaşıllıqların yerləşdiyi obyektlər" sütununun üçüncü sətrində "Səhiyyə" sözü "Tibb" sözü ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 23 yanvar tarixli 21 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 1, maddə 137) ilə təsdiq edilmiş "Yaşıllıqların müfəssəl siyahısının tərtib edilməsi qaydası, təyinatı və onlardan istifadə Qaydası (rejimi)"nın 3.1.2-ci yarımbəndində "səhiyyə" sözü "tibb" sözü ilə əvəz edilsin.

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 28 fevral tarixli 64 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 2, maddə 367, № 11, maddə 2433) ilə təsdiq edilmiş "Ailə tipli, icma əsaslı, qısamüddətli təlim qruplarında məktəbəqədər təhsilin təşkili Qaydası"nın 8.3-cü bəndində "ərazi üzrə səhiyyə müəssisəsi" sözləri "ərazi üzrə dövlət tibb müəssisəsi" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***

Xalq qəzeti 2020.- 3 dekabr.- S.8.